**İLHAM QƏHRƏMANIN**
**təqdimatında**

Şair imzası Dinməz olan Mortəza Dostəlinicat 1974-cü il fevralın 21-də Təbrizdə dünyaya gəlib. 1984-cü ildən şeir yazır. Təbrizdə yaşayan şair orda fəaliyyət göstərən ədəbi dərnəklərin dinləyicisi olub. Gənc şairin hələlik "Göy sancı çəkir" adlı şeirlər kitabı işıq üzü görüb. Quzey Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvüdür.



DİNMƏZ

## QORXU

Qollarını dola boynuma
Havalar Araz qoxuyur

## GƏLMƏ GECƏ

Sən gəlirsən
İki göz,
iki dodaq,
İki əl,
iki ayaq gəlir üstümə.
Birdən ikiyə bölünürəm -
Yarılanıram,
Yarım ölü,
yarım diri.
Məndə bir ölü,
bir diri yaşayır.
Birisinə çörək,
birisinə su daşımalıyam.
Çörək əllərimin qabarlarından,
su gözlərimin damarlarından çıxır
Yox!
Məndə o güc yox.
Güc
ürəyi olmayan adamlarda olar!
* * *
Gözünüzə görünən
mən deyiləm,
Qarşınızdan keçirəm...
Baxışım ürəyinizə gülməsin
Buraxın ayaqlarımı,
Gözünüzü dikin əllərimə
Əllərimin gözü
cibinizdədir...
* * *
Günəşin batan çağı yoxluğun harasına getdin?!
O mindiyin avtobus
Tənhalığın harasında endirdi səni o gecə
Getdiyin saatdan
qaranlıq quşları yuva saldı gözlərimdə.
Bir yarpaq budağından üzlən kimi
Eləsinə işıq üzündən üzüm üzüldü.
Sənə aldığım o güzgü nə oldu?!
O güzgüyə baxırsanmı?!
Orda bir mən var
Yoxluğunu od çəkir gecə yuxularına,
Su səpir gündüz röyalarına.
Yoxluğun yox olmur gözlərindən,
Yoxluğun ölümdür çiynində daşıyır küçə-küçə.
Yoxluğun Çin divarıdır, qarşısında boy atıb
Yoxluğundan
Bütün xiyabanlarda
Bütün avtobusları daşa basır dəlicəsinə.
Sənsizliyin darıxmasında
Darıxır ürəyi,
Darıxır hər nəyi.
Yox
Bu necə ölümdür?!
İki divarın arasında bizi sıxır,
Bizi yıxır.
Sıxılmaqdan,
yıxılmaqdan daha bezmişəm deməyim gəlir
İnan, bu divarsız şəhərdə
sənsiz dayanacağım yox
Sənsizliyi
sənin yerinə qucaqlamaqdan doymuşam daha.
Sənsizliyi
bütün qapıları yumruqlarımla sındırıb
bu yaxınlarda gedib
Allahın qapısını döyəcəyəm!
* * *
İstanbulda
"Ataköy" metrosundayam...
Metrolar boyu yoxsulluqlar içində
Şirin evlər qarşısında
Acı yalnızlıqları yaşayıram.
Gözlərim gecələr dolu yaş,
Əllərim,
ayaqlarım...
Burax!
Üşüyürəm, Təbriz.
İçimdəki soyuqluğu
yer doğur,
Göy sancı çəkir
* * *
Gözlədiyin günəş
ucqarlarda batdı
Gecələri ört gözlərinə yat.
Ulduzlara fikir vermə
Ağrıyarsan
Ağrım dünyanın ən ağır yüküdür,
Kürəyimdə daşıyıram hər zaman onu.
Nə olub -
Hansı payızın küləyində
yarpaqlarını tökürsən,
Hansı qışın qarında
saçlarını?!
Burax,
Yaz nədir,
yay nədir?!
Mən yazda o küləyə,
yayda o qara düşdüm.
Sən hansı şəhərdə unutdun özünü,
Kimin gözləri çaldı səni ayaqdan-başa?!
Yoxsan -
Kimin əllərində getdi əllərin,
ürəyin hanı
Hansı ac ürəksiz ürəyini yedi?!
Yoxsan -
Bağışla ayağın mənə oxşayır bir az,
Mən gediş yollarında ayağam
Ağrıyam yollara
Nə deyim!
Yox heç nə demirəm qalsın
Yoxsan
Yoxsan
Yoxsan...
* * *
Sən
kiçik bir şey deyil
Səni harda gizlədim?!
Hansı gecənin qarnında,
hansı gündüzün göbəyində?!
Hansı şəhərdə,
harda
Səni hansı bir qəbristanda basdırım
ölüləri diksinməsin?!
Harda,
səni harda gizlədim?!
* * *
Bakıdayam,
İçərişəhərdə
İçərim ayrılıqlar dolu,
İçərim yiyəsiz uşaq,
İçərim eşiksiz.
İçərim
Burax,
Sıxılıram içərimdə.
Ürəyim
Göydə buludlar,
Buludlarda yağış,
Yağış yağıram
Pəncərələr qapanır üzümə bir-bir,
Bir-bir şüşələrə dəyirəm
Şüşələri yuyuram,
Yuyunuram şüşələrdə,
İslanır içəri şəhər,
İslanır Bakı,
İslanıram,
İslanır
Yox quruyur
Qurumaz Təbrizin
Göz yaşları içərimdə
* * *
Qorxma, polis qardaşım,
Heykəlim gözlərində dağlanmasın
Baxışımdan külək əsməsin əllərin
Sındır barmaqlarının buzlarını
Nəyin varsa yağdır təpəmə
Qorxma, polis qardaşım,
Öldüm deyə vura bilərsən məni
Bəlkə ölüm
diriliyimi yerdən götürdü

## QARANLIQ

Qaranlıq -
Sevgimin gözləri
Gecələr yuxuma gələn,
gündüzlər başıma.
Günəş yuxudan oyanmadan
ürəyimdən uçan ümid quşları
köçər qaranlıqlara.
Qaranlıq -
Hərdən atamın qılığına girər,
Hərdən anamın çarşabını bürünər.
Qaranlıq - qardaşım,
Qaranlıq - bacım,
Qaranlıq -
qaranlıq mən

***
Hər gün
səhər çağı işə gedəndə
qarşıma çıxardı,
Gözləri gözümə dolardı hər gün.
Baxışları
xalça-xalça ürəyimə toxunardı
Ürəyinə toxunmadığım qızın
* * *
Səni sevməsəydim,
Xəzər baxışlı,
şaman yanaqlı,
yaz qoxulu,
kimi sevə bilərdim?!
Sənin qədər sənə yaxın,
Sənin qədər parlaq
sənə bənzər bir şair doğulmazdı beynimdə.
Səni sevməsəydim
Bəlkə də sevməyi bacarmıram.
Yoxsa,
Dünən bir it ağızlının ağzından çəkməzdim
adını çəkdiyinə.
Adını burax,
Sən varsan qorxum yox qaranlıqdan.
Otağım gecələr dolu -
Ay doğulur tavanından,
Ulduzlar calanır divarından
mən yalnız
Səni sevirəm
Səni sevməsəydim
* * *
"Evini yandıracağam dünyanın!" -
Atam deyərdi
sıxılanda hər zaman.
Evini,
evində bizi,
özün yandırdı atam,
Özünə
bir kirbit çöpü alanmadan

## SEVİLƏ-SEVİLƏ ÖLMƏYƏCƏYƏM

Sevilə-sevilə ölməyəcəyəm,
Elə öləcəyəm acığın gələ,
Elə öləcəyəm, öləcəyəm ki,
Ağlamaq yerinə gözlərin gülə.

Sevilə-sevilə ölməyəcəyəm
Özləm şəhərində yalqız gəzəsən,
Mən elə acıqlı öləcəyəm ki,
Elə ölümümə rahat dözəsən.

Elə öləcəyəm ölümdən betər
Sən məni unudub itirəcəksən,
Nə bir də gözümə gözün düşəcək,
Nə məni dilinə gətirəcəksən.

Sevilə-sevilə ölməyəcəyəm
Beynində bir diri xatirə qala
Elə Dinməz kimi səsiz-səmirsiz
Öləcəyəm ölüm səndən can ala.